

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 95 (23.737)

27 may 2021-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Şərur Günəş Elektrik Stansiyası istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".***

Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Son illər yeni su və günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir. Xüsusilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Mayın 26-da Şərur rayonunun Zeyvə kəndində 5 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.





Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev energetiklər adından minnətdarlıq edərək demişdir ki, muxtar respublikada energetika sisteminin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, enerji təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Yeni elektrik stansiyalarının istifadəyə verilməsinin və energetika təsərrüfatının müasir tələblər səviyyəsində qurulmasının nəticəsidir ki, istehlakçılar dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunurlar. Şərur rayonunun Zeyvə kəndində 5 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi də muxtar respublikada elektroenergetika sisteminin inkişafı sahəsində görülən işlərin davamıdır.



Ali Məclisin Sədri yüksəkgərginlikli sınaq cihazlarına və stansiya üçün alınmış "Mitsubishi L200" markalı avtomobilə baxmışdır. Məlumat verilmişdir ki, Ukrayna istehsalı olan cihazlar sınaqların aparılmasında yüksək iş əmsalına malik, eyni zamanda təhlükəsizlik baxımından əlverişlidir. Bu cihazlar kabellərin və bərk dielektriklərin sınaqlarını və transformatorların gərginliyini ölçmək, yeraltı metal kommunikasiyaların yerinin təyini və bütün növ elektrik kabellərinin zədələnməsinin axtarışı, kabellərin zədələnmə sahələrinin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

İsveçrənin "Pure Energy Development" SARL şirkətinin icraçı direktoru Mişel Kalerami demişdir: "Dünyada hökm sürən pandemiya dövründə Naxçıvanda böyük layihələrin həyata keçirilməsi muxtar respublikanın bu çətin dövrü uğurla arxada qoymasının göstəricisidir. Mən çox ölkələrdə işləmişəm. Lakin Naxçıvanda işləmək çox güvənli və asandır. Şirkətimizi yenidən seçdiyiniz üçün minnətdarlıq edirik. Naxçıvan regionda alternativ enerji istehsalı sahəsində liderliyi qoruyur. Çünki yaşıl elektrik enerjisi istehsalına buranın təbii resursları imkan verir. Bu da Naxçıvanın yaşıl bazarda layiqli paya sahib olmasını şərtləndirir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 5 meqavatlıq yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi və qarşıdan gələn 28 May – Respublika Günü münasibətilə kollektivi təbrik etmiş, Günəş Elektrik Stansiyasının istifadəyə verilməsini Şərur rayonunun həyatında əlamətdar hadisə kimi dəyərləndirmişdir.

Ali Məclisin Sədri demişdir: Naxçıvanın muxtariyyət tarixi iki dövrə bölünür: müstəqillik illərinə qədərki və müstəqillik illərindən sonrakı dövr. Hər iki dövrdə muxtar respublikada sənayenin inkişaf etdirilməsi üçün elektrik enerjisinə böyük ehtiyac olub. Sovet İttifaqı ilə İran dövləti arasında bağlanmış müqaviləyə əsasən gücü 22 meqavat olan Araz Su Elektrik Stansiyası qurulub istifadəyə verilmişdir. 1990-cı illərin hadisələri muxtar respublikaya ağır zərbələr vurdu, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvana gələn bütün kommunikasiyalar kəsildi. Naxçıvan elektriksiz qaldı. Ötən illərdə muxtar respublikada elektrik enerjisi ilə təminat sahəsində bir sıra işlər görülmüşdür. Əgər 70 il ərzində Araz çayı üzərində cəmi 1 müştərək elektrik stansiyası tikilmişdirsə, müstəqillik illərində Naxçıvanda 9 yeni elektrik stansiyası qurulmuşdur ki, bunun da 5-i su, 3-ü isə günəş elektrik stansiyasıdır. Onların sırasına bu gün 5 meqavat gücündə yeni Şərur Günəş Elektrik Stansiyası da daxil olur. Bu da muxtar respublikada Günəş Elektrik stansiyalarının gücünü 32 meqavata, illik istehsalını isə 50 milyon kilovat-saata çatdıracaqdır.

"Muxtar respublikada il ərzində istifadə olunan 430 milyon kilovat-saata yaxın elektrik enerjisinin 50 faizi bərpa olunan enerji mənbələrinin payına düşür", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bərpa olunan enerjidən istifadə hər bir ölkənin inkişaf göstəricisidir. Muxtar respublikanın təbii imkanlarından – dağ çaylarının gücündən, bol günəşdən istifadə etməklə elektrik stansiyalarının qurulmasına xüsusi diqqət yetirilir. Bütün bu işlər qısa müddətdə ona görə görülmüşdür ki, ölkəmizdə ümummilli lider Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir, sabitlik və inkişaf



vardır. Ölkə Prezidentinin səylərinin nəticəsidir ki, bu gün Azərbaycan inkişaf etmiş ölkələr sırasındadır. Naxçıvan Muxtar Respublikasında da bütün sahələrdə inkişaf müşahidə olunur. Günəş Elektrik Stansiyası Şərur rayonunun elektrik enerjisinə olan tələbatının



ödənilməsində mühüm əhəmiyyətə malik olacaqdır. Rayonun elektrik enerjisinə illik tələbatı 75 milyon kilovat-saata yaxındır. Bunun 10 faizini illik istehsal gücü 7,5 milyon kilovat-saat olan yeni stansiya ödəyəcəkdir.

Ali Məclisin Sədri demişdir: Yeni Günəş Elektrik Stansiyası yeni iş yerlərinin yaradılması,

*Ardı 2-ci səhifədə*

yeni mütəxəssislərin formalaşması və ucuz qiymətə başa gələn enerji istehsalı deməkdir. Gələcəkdə də muxtar respublikanın çay sularından istifadə olunmaqla su, əkinəyararsız ərazilərdə isə günəş və külək elektrik stansiyalarının qurulması davam etdiriləcəkdir. Məqsəd istifadə olunan elektrik enerjisini 100 faiz bərpa olunan enerji hesabına ödəməkdir. Muxtar respublika elektrik enerjisi ilə nəinki özünü təmin edə bilir, eyni zamanda İran İslam Respublikası ilə elektrik enerjisi mübadiləsi də həyata keçirilir. Elektroenergetikanın inkişaf etdirilməsi digər sahələrin də inkişafına səbəb olacaqdır. Ən əsası isə sənaye inkişaf edəcək ki, bu da muxtar respublikanın ümumi inkişafına öz töhfəsini verəcəkdir.

Sonra stansiyaya baxış olmuşdur.

Məlumat verilmişdir ki, yeni Günəş Elektrik Stansiyasının qurulması üçün 16 avqust 2020-ci il tarixdə İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında müqavilə imzalanmışdır. Kənd təsərrüfatına yararsız 7,9 hektar ərazidə yerləşən stansiyada tikinti-quraşdırma işləri qısa müddətdə və yüksək keyfiyyətlə aparılmış, 15 min 180 müasir "şüşə-şüşə" tipli günəş panelləri, hər birinin gücü 50 kilovat olan 100 invertor, 5 ədəd 35/0,4 kilovoltluq transformator, 1 ədəd 35 kilovoltluq qapalı paylayıcı yarımstansiya quraşdırılmışdır. Stansiyada alçaq və yüksəkgərginlikli, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilmiş, ərazi çəpərlənmiş, müasir siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin olunmuşdur. Müasir avadanlıqlarla təchiz olunan stansiyada elektrik enerjisi istehlakçılara itkisiz çatdırılacaqdır.

Ali Məclisin Sədri növbəti Günəş Elektrik Stansiyasının tikilməsi üçün yerin müəyyənləşdirilməsi, Naxçıvan Dövlət Universitetində Elektroenergetika mühəndisliyi ixtisasında təhsil alan tələbələrin xarici ölkələrə kurslara göndərilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

*Dövlət proqramı icra olunur*

# Muxtar respublikada baytarlıq xidməti müasir tələblərə uyğun qurulmuşdur

***Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək və ərzaq təhlükəsizliyinə nail olmaq ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi hər iki dövrdə prioritet vəzifə kimi qarşıya qoyulmuş, aqrar sahənin inkişafına xüsusi diqqət yetirilmişdir. Təkcə onu xatırlatmaq kifayətdir ki, Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq aqrar islahat Azərbaycanda ulu öndərimizin rəhbərliyi ilə aparılmışdır.***

Aqrar sahə həmişə olduğu kimi, bu gün də ölkəmizdə diqqət mərkəzindədir. Bu sahənin inkişafının vacibliyini və əhəmiyyətini qeyd edən Prezident cənab İlham Əliyev demişdir: ***"Kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir. Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm də ixracdır".***

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən birini əhalinin keyfiyyətli və təmiz ərzaq məhsulları ilə təmin olunması təşkil edir. Bu istiqamətdə görülən işlər ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün vacib əhəmiyyətə malikdir. Heyvandarlıq aqrar sektorun əsas sahələrindən olmaqla, əhalinin ərzaq məhsulları ilə təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın da əsas məqsədlərindən biri heyvan mənşəli qida məhsullarının ilkin istehsalı, tədarükü, emalı, qablaşdırılması, saxlanılması, daşınması, dövriyyəsi də daxil olmaqla, qida zəncirinin bütün mərhələlərində məhsulların təhlükəsizliyinin təmin edilməsidir.

Naxçıvanda həyata keçirilən abadlıq-quruculuq tədbirlərinin mərkəzində insan amili dayanır. Yeni istifadəyə verilən sosial obyektlərin sayının ildən-ilə artması əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin də artmasına səbəb olur. Muxtar respublikada tikilən kənd mərkəzlərində baytarlıq məntəqələrinin yaradılması insanların keyfiyyətli qida məhsullarına olan tələbatının ödənilməsinə xüsusi diqqət yetirildiyini bir daha sübut edir. Bu işlər birinci rübdə də uğurla davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə yanvarın 14-də Şərur rayonunun Şəhriyar, fevralın 5-də Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kəndlərində istifadəyə verilən kənd mərkəzlərində baytarlıq məntəqələrinin fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılmışdır. Kəngərli Rayon Baytarlıq İdarəsi üçün inzibati binanın tikintisinin davam etdirilməsi isə bu sahədə infrastrukturun daha da yaxşılaşdırılmasının diqqət mərkəzində saxlanılmasından xəbər verir.

Heyvandarlığın inkişaf etdirilməsi mal-qaranın sağlamlığının qorunması və onların xəstəliklərə qarşı dayanıqlılığının artırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Heyvan xəstəliklərinə qarşı profilaktik tədbirlərin vaxtında aparılması yüksək məhsuldarlığın sabitliyi üçün başlıca amillərdəndir. Dövlət proqramında da bu istiqamətdə tədbirlərin həyata keçirilməsi üçün mühüm tapşırıqlar müəyyənləşdirilmişdir. Birinci rübdə qarayara xəstəliyinə qarşı 100 min 591 baş iribuynuzlu, 5 min 380 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 110 min 53 baş iribuynuzlu, nodulyar dermatit xəstəliyinə qarşı 83 min 613 baş iribuynuzlu heyvanda, nyukasl xəstəliyinə qarşı 140 min 812 baş quşda, quduzluq xəstəliyinə qarşı 2 min 989 baş itdə peyvəndləmə, profilaktik məqsədlə 1302 obyektdə 231 min 474 kvadrat metr sahədə dezinfeksiya tədbirləri aparılmışdır. Bu dövrdə diaqnostik olaraq vərəm xəstəliyinə görə 18 min 904 baş iribuynuzluda, epididimitə görə 97 baş qoçda, manqo xəstəliyinə görə 1633 baş təkdırnaqlıda müayinələr həyata keçirilmişdir. Bruselyoz xəstəliyinə görə 7 min 923 baş iribuynuzlu, 1933 baş xırdabuynuzlu heyvan və 97 baş qoçdan qan nümunələri götürülərək yoxlanılması təmin edilmişdir. Həmçinin 5 adda xəstəliklərə görə heyvanlardan nümunə götürülərək yoxlanılmış və təyinatı üzrə tədbirlər həyata keçirilmişdir. Proqramın icrasına uyğun olaraq 763 baş heyvandan götürülən patoloji nümunələrin yoxlanılması iti gedişli infeksion xəstəlik aşkar edilməməsi ilə nəticələnmişdir.

Dövlət proqramında nəzərdə tutulan tapşırıqlardan biri də tələf olmuş heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınmasıdır. Bu istiqamətdə görülən işlər yoluxucu və parazitar xəstəliklərin yayılmasına vaxtında mane olmaq məqsədi daşıyır. Yanvar-mart aylarında muxtar respublikada 2 baş iribuynuzlu, 53 baş xırdabuynuzlu və 8 baş it tələf olmuşdur. Tələf olmuş heyvanların cəsədləri baytar həkimlərin nəzarəti altında və təlimata uyğun qaydada texniki vasitələrlə qazılan xəndəklərdə dərmanlanaraq basdırılmışdır. Eyni zamanda heyvan cəsədlərinin ətraf mühitə atılmasının qarşısının alınması məqsədilə Şahbuz rayonunun Badamlı və Şada kəndlərində quyular qazılmışdır.

Heyvan xəstəliklərinin qarşısının alınması ilə yanaşı, baş verən xəstəliklərin düzgün müalicəsinin təşkili də xüsusi önəm kəsb edir. Dövlət proqramının icrasına uyğun olaraq




heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılmasının diqqətdə saxlanılması bu sahədə geniş potensialın formalaşmasına gətirib çıxarır. Həmin tədbirlər birinci rübdə də davam etdirilmiş, Dövlət Baytarlıq Xidmətinə Babək şəhəri və Sədərək rayonunda yeni əczaxanaların açılması ilə bağlı müraciət daxil olmuşdur. Müraciətlərə uyğun olaraq araşdırma aparıldıqdan sonra müvafiq lisenziyalar təqdim edilməklə heyvandarlıq-arıçılıq sahələri üzrə 2 yeni əczaxananın fəaliyyətə başlaması təmin olunmuşdur. Həmçinin yanvar-mart aylarında baytarlıq preparatlarının, yemlərin, yem əlavələrinin, biostimulyatorların, hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarət davam etdirilmişdir. Bu məqsədlə Naxçıvan şəhəri, Şərur, Ordubad, Culfa və Babək rayonlarında fəaliyyət göstərən baytarlıq əczaxanalarında, ümumilikdə, 12 reyd keçirilmişdir.





Heyvandarlıq məhsullarının istehsalına müsbət təsir göstərən faktorlardan biri də süni mayalanma işinin təşkilidir. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması ət və süd istehsalının intensiv surətdə artırılmasına təkan verən əsas amillərdəndir. Dövlət proqramının icrasına uyğun olaraq birinci rübdə 2 min 240 baş iribuynuzlu heyvanda süni mayalanma işləri aparılmış, ötənilki mayalanma nəticəsində 3 min 312 baş buzov doğulmuşdur. Doğulan buzovların birkalanaraq qeydiyyata alınması təmin edilmişdir. Süni Mayalanma Mərkəzinin fəaliyyətinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər isə bu sahədə görülən işlərin effektivliyini artırmağa hesablanmışdır. Belə ki, birinci rübdə burada mövcud olan 3 baş qoç və 4 baş təkə 1 baş kəllə əvəzləşdirilmiş, ümumilikdə, mərkəzdə 5 baş törədici buğa və 2 baş kəlin saxlanılması təmin olunmuşdur. Həmçinin mərkəz Fransa istehsalı olan avadanlıqlarla təmin edilmiş, toxum istehsalına başlanılmış və toxum bankı yaradılmışdır. Qeyd edilən dövrdə Süni Mayalanma Mərkəzi tərəfindən bu sahədə fəaliyyət göstərən texniklərə 750 buğa toxumu paylanmışdır. Görülən işlər onu deməyə əsas verir ki, Naxçıvanda heyvandarlıq sahəsində həyata keçirilən süni mayalanma tədbirləri heyvan sağlamlığının təmin edilməsi, heyvandarlıq məhsullarının qısa müddət ərzində artırılması, heyvanların cins tərkibinin yaxşılaşdırılması və yeni cinslərin yaradılması üçün geniş imkanlar açmağa davam edir.




Cəmiyyətin inkişafının bütün mərhələlərində baytarlıq sahəsində fəaliyyət göstərən mütəxəssislərin həyata keçirdikləri fəaliyyətin böyük önəmi vardır. İstər muxtar respublikada mövcud olan mal-qaranın müxtəlif növlü xəstəliklərdən qorunması, istərsə də kənardan heyvan mənşəli xəstəliklərin daxil olmasının qarşısının alınması sahəsində baytarlıq təbabəti əvəzedilməz rol oynayır. Bütün bunlarla yanaşı, əhalinin artım tempinə uyğun olaraq heyvandarlıq məhsullarının istehsalının çoxaldılması zərurəti bu sahənin əhəmiyyətini xarakterizə edən digər mühüm amildir. Bu işlərin yüksək peşəkarlıqla reallaşdırılması üçün baytarlıq təbabəti sahəsində dərin nəzəri biliklərə və təcrübəyə malik mütəxəssislərin yetişdirilməsi əsas şərtlərdəndir. Muxtar respublikada müvafiq ixtisas üzrə təhsil alan tələbələr üçün hərtərəfli şəraitin yaradılması, Dövlət proqramında bu istiqamətdə tapşırıqların nəzərdə tutulması baytarlıq təbabəti sahəsinə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Heyvandarlığın inkişafında ixtisaslı kadr hazırlığı və elmi yanaşma mühüm şərtdir. Çünki hər hansı bir sahədə inkişafa nail olmaq üçün, ilk növbədə, kadr hazırlığı aparılmalıdır. Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası yaradılmış, müvafiq ixtisas üzrə təhsil alan tələbələr ödənişlərdən azad olunmuşlar. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində bu sahə üzrə təhsillərini başa vuran gənclərimiz hazırda muxtar respublikanın Dövlət Baytarlıq Xidmətində fəaliyyətlərini davam etdirirlər. Muxtar respublikada yeni Süni Mayalanma Mərkəzinin yaradılması da bu sahədə işlərin lazımi səviyyədə həyata keçirilməsinə imkan verəcəkdir. Tələbələr ali və orta ixtisas təhsili müəssisələrində bu işi nəzəri, Dövlət Baytarlıq Xidmətində və Süni Mayalanma Mərkəzində isə praktik cəhətdən öyrənəcəklər".***

Proqramda bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası birinci rübdə də davam etdirilmiş, Dövlət Baytarlıq Xidməti tərəfindən fevralın 25-də Naxçıvan Dövlət Universitetinin, həmin ayın 18-i və martın 17-də isə Naxçıvan Dövlət Texniki Kollecinin müvafiq ixtisas üzrə təhsil alan tələbələri ilə görüşlər keçirilmişdir. Həmçinin Süni Mayalanma Mərkəzinə Türkiyə Respublikasından dəvət olunmuş mütəxəssis tərəfindən fevralın 17-si və 23-də Naxçıvan Dövlət Universitetinin, həmin ayın 19 və 25-də Naxçıvan Dövlət Texniki Kollecinin müvafiq ixtisasda təhsil alan tələbələrinə, ayın 22-də isə 19 süni mayalanma texnikinə praktik dərslər keçilmişdir. Qeyd olunanlarla yanaşı, Naxçıvan Dövlət Texniki Kollecinin Baytarlıq ixtisası üzrə təhsil alan dördüncü kurs tələbələrinin martın 16-dan aprelin 26-dək Süni Mayalanma Mərkəzində istehsalat təcrübəsi keçməsi üçün lazımi şərait yaradılmışdır.

Muxtar respublikada heyvandarlıqla məşğul olan təsərrüfatçılar üçün xüsusi əhəmiyyət daşıyan məsələlərdən biri də heyvanların gözlənilməz hadisələrə qarşı sığorta olunmasıdır. Riskli hadisələr nəticəsində dəyə biləcək zərərlərin ödənilməsinin təmin edilməsi faydalı heyvandarlıq fəaliyyəti ilə məşğul olmağı stimullaşdıran tədbirlərdəndir. Bu istiqamətdə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası birinci rübdə də diqqətdə saxlanmış, heyvandarlıq sahəsi üzrə 650 sığorta müqaviləsi bağlanmışdır. Bu müqavilələrin bağlanması heyvandarlıqla məşğul olan təsərrüfatçıların əmlak mənafelərinin qorunmasının aqrar sektorun əsas prioritetlərindən olduğunu deməyə əsas verir.

"2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası bu sahədə daha böyük uğurların qazanılmasına imkan verəcəkdir.

**"Şərq qapısı"**

# Günnütdən Qarabağa!



***Bəzən zaman elə sürətlə irəliləyir ki, vaxtın necə ötdüyünün fərqinə belə, varmırıq. Amma həyatımızda elə tarixlər, elə anlar var ki, onları qürurla xatırlayırıq. 2018-ci ilin may ayı... Tariximizə qızıl hərflərlə yazılan şanlı Azərbaycan əsgərinin zəfər günü...***

Həyatımda ikinci dəfə bir jurnalist olaraq hərbi geyimi qürurla geyinmək şərəfinə nail olduğum gün mənim üçün də unudulmaz gün idi. Bu dəfə bizi şərəfli və məsuliyyətli bir səfər gözləyirdi. Bu səfərin məqsədi "Günnüt zəfəri"ni qazanmış qəhrəman Azərbaycan əsgərləri ilə görüşmək, qələbənin qazanılmasında əldə edilmiş strateji yüksəkliklərdən çəkilişlər aparmaq idi. Bu yola çıxmaq isə hər bir Azərbaycan vətəndaşının arzusu, hər bir jurnalistin illərlə həyəcanla düşündüyü hisslər idi. Yola həmkarım Ruhiyyə Rəsulova ilə birlikdə çıxdım. Nə xoşbəxt bizə...

Bizi 26 il sonra Azərbaycan əsgərinin ilk dəfə ayaq basdığı bu torpaqlara aparan yol, sözsüz ki, həyəcanlandırmaya bilməzdi. Uzun, çətin dağlıq şəraitində hərbi avtomobillərdə irəlilədikcə igid oğullarımızın bu çətin reylefə malik ərazidə necə mərdliklə və əzmlə xidmət apardığını, bu yurd yerimizi öz nəzarətə keçirməyin heç də asan başa gəlmədiyinin şahidi olurduq. Bəzən hərbi avtomobillərin belə, irəliləyə bilmədiyi bu yerlərdə ürəyi Vətən eşqi ilə yanan qəhrəmanlarımız xidmət edirdi. Burada hər zabitin, hər əsgərin gözlərində parlayan zəfər alovunu görməmək mümkün deyildi. Hər gün addım-addım, pillə-pillə irəliləyən qəhrəman igidlərimiz bir gecədə düşməni taktiki cəhətdən üstələyib mövqelərini daha da irəliyə çəkərək strateji cəhətdən yüksək mövqelərdə möhkəmlənmişdi. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirilmiş, Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti tam olaraq nəzarət altına götürülmüşdü. Ümumilikdə isə 11 min hektara yaxın ərazi nəzarət altına keçmişdi. Dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ələ keçirilməsi ilə düşmən ərazisindən keçən İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna birbaşa nəzarət etmək imkanı ordumuzun əlində idi.

Bütün bunlar hər bir azərbaycanlı kimi, bu yüksəkliklərə qalxanda bizi də qürurlandırırdı. Axı bu Vətənin hər daşında, hər qayasında ulu babalarımızın ayaq izi, vaxtilə burada yaşamış günnütlülərin məzarları var. Bu gün biz haqlı olaraq fəxr edə bilərik ki, ordumuzun qorxmaz, igid, cəsur əsgərləri heç zaman düşmənin dövlət sərhədini pozub torpaqlarımızı nəzarətdə saxlamasına imkan vermir. Bax budur, Azərbaycan əsgərinin gücü!




Tale elə nəsib etdi ki, mən düz bir il sonra yenidən "Günnüt" döyüş bölgəsində xidmət aparan şəxsi heyətlə görüşə bildim. Amma bu dəfə başqa bir mənzərə bizi qarşıladı. İndi bir il ərzində çəkilmiş rahat yollar bizi əsgərlərin xidmət etdiyi Qızılqaya yüksəkliyinə gətirirdi.

Xatırladım ki, bu əməliyyat çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ordumuzun nəzarətinə keçən Günnüt kəndinə gələrək burada xidmətini yerinə yetirən əsgər və zabitlərlə görüşüb, bu istiqamətdə uğurla başa çatan əməliyyatlara görə onlara təşəkkür etməsi və bu əməliyyatda xidməti ilə seçilən əsgər və zabitləri qiymətli hədiyyələrlə mükafatlandırması şəxsi heyəti daha da ruhlandırmışdı.



Az bir müddətdə Ali Məclis Sədrinin bilavasitə tapşırığı ilə postlarda və bölük mərkəzlərində yeni yataqxana və xidmət binaları inşa olunmuşdu. Eyni zamanda əraziyə yeni yollar çəkilmiş, postlar arasında rahat əlaqə təmin edilmişdir. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilmişdir. Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bütün mövqelərində şəxsi heyət üçün nümunəvi xidmət şəraiti yaradılmışdır.

Qısa zaman ərzində işğaldan azad edilmiş yeni mövqelərdə inşa olunan əsgəri-məişət kompleksləri, ön xətdə xidmətin rahat və etibarlı təşkili üçün yaradılan şərait bir daha ordumuzun qüdrətini nümayiş etdirirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi Günnüt əməliyyatını peşəkarlıq və məharətlə həyata keçirilən uğur adlandırıb: ***"Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".***

Hələ bu ərazilər işğaldan azad olunan zaman hərbi mütəxəssislər bildirirdilər ki, Əlahiddə Ümumqoşun Ordunun həyata keçirdiyi bu əməliyyat nəticəsində əldə edilən həmin yüksəkliklər, gələcəkdə, nəinki Naxçıvan istiqamətində, hətta Qarabağın işğaldan azad edilməsi istiqamətində də mümkün genişmiqyaslı hərbi əməliyyatların gedişatını təyin edə bilər. Və elə deyilən kimi də oldu.

Cənab Prezidentin Naxçıvana son səfəri zamanı da qeyd etdiyi kimi: ***"Günnüt əməliyyatı, biz də dediyim kimi, bunun üstünü vurmaq istəmədik. Amma ondan sonra Ermənistanın artıq devrilmiş hakimiyyətinin jurnalist nümayəndələri gedib bizim yeni postlarımızı çəkib, bunu internetdə qoyubdur, paylaşıbdır və ondan sonra Ermənistanda hay-küy qalxdı. Onda mən dedim ki, daha biz də niyə gizlətməliyik? Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tapşırıq verdim ki, siz də məlumat verin, çəkiliş qrupu göndərin və çəkiliş qrupu getdi, həmin o yüksəklikləri gördü. Yəni Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi".***

Bu gün artıq günnütlülər ata-baba yurdlarında rahat şəkildə ordumuza arxalanaraq öz təsərrüfatlarını genişləndirirlər. Bu yurdun əsl sahibləri indi burada həm heyvandarlıq, həm də arıçılıqla məşğul olurlar.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, hər bir vətəndaşımız rahat, sabitlik şəraitində yaşayır, Azərbaycan əsgərinə güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvanımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.

Bəli, illər öncə Günnüt zəfərində iştirak edən igid oğullarımız 44 günlük Vətən savaşımızda, Qarabağımızın azadlığa qovuşmasında da xüsusi şücaət göstərdilər.

İstər Günnüt, istərsə də Qarabağ zəfəri zamanı Vətənin qəhrəman və igid oğulları düşməni bir daha vəlvələyə saldı. Düşmənə işğal etdiyi ata-baba torpaqlarımızda müvəqqəti yaşadığı, tezliklə bu yurd yerlərini əsl sahiblərinə qaytarmalı olduğu bir daha əyani şəkildə göstərildi. Bəli, o gün gəlib çatdı. Günnüt zəfəri ilə qələbəni ruhunda hiss edən şanlı Azərbaycan Ordusu işğal altındakı digər torpaqlarımızda da üçrəngli bayrağımızı dalğalandırdı. Bu gün qalib Azərbaycan əsgəri Günnüt dağlarından Şuşaya, Cıdır düzünə Mübariz və Polad addımlarla irəlilədi. Qarabağda zəfər savaşında döyüşən, qələbə paradında iştirak edən igid Azərbaycan əsgərim, səninlə qürur duyuruq!

**Ramal MƏMİŞOV**

## Müsabiqənin final mərhələsi başa çatıb



İstedadlı şagirdlərin aşkar olunması, onlar arasında sağlam rəqabət mühitinin yaradılması, aşağı sinif şagirdlərinin müxtəlif fənlərə olan marağının artırılması, onlarla məqsədyönlü işlərin aparılması məqsədilə məktəblilərin fənn müsabiqələrinin final mərhələsi keçirilib. Müsabiqənin final mərhələsində ümumtəhsil məktəblərinin VI və VII siniflərdən olmaqla, 147 şagird iştirak edib.

Müsabiqədə şagirdlərə biliklərinin, analiz qabiliyyətlərinin və məntiqi təfəkkürlərinin inkişaf səviyyələrinin qiymətləndirilməsi üzrə 50 sual təqdim olunub və test tapşırıqlarının cavablandırılması üçün 3 saat vaxt verilib.

Bu mərhələdə muxtar respublikadan 36-sı riyaziyyat, 15-i isə informatika fənni olmaqla, ümumilikdə, 51 şagird VI sinif üzrə, 27-si fizika, 31-i kimya, 38-i isə biologiya fənni olmaqla, ümumilikdə, 96 şagird isə VII sinif üzrə öz bilik və bacarığını nümayiş etdirib.

Qeyd edək ki, respublika fənn müsabiqələrinin I mərhələsi də eyni fənlər üzrə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Magistraturaya qəbul imtahanının ikinci mərhələsi olub

Dünən Dövlət İmtahan Mərkəzi tərəfindən ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı (II cəhd) keçirilib. İmtahan respublikanın 7 şəhər və rayonunda – Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə, 63 binada aparılıb. İmtahanda 14 min 693 bakalavr iştirak edib. Onlardan 13 min 529 nəfəri Azərbaycan bölməsi, 1164 nəfəri rus bölməsi üzrə imtahan verib. İmtahan bütün binalarda eyni vaxtda, saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 5 və 14 nömrəli tam orta məktəblərdə keçirilib. İmtahanda, ümumilikdə, 512 bakalavr iştirak edib. Bakalavrların rahat imtahan verməsi üçün zəruri şərait yaradılıb. İmtahanın təşkili üçün 44 zal, 2 buraxılışa məsul şəxs, 6 rəhbər, 53 nəzarətçi ayrılıb. İmtahanda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılıb. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanıb.

İştirakçılar imtahanın nəticələri ilə yaxın günlərdə Dövlət İmtahan Mərkəzinin *http://dim.gov.az* saytında tanış ola bilərlər.

**Güntac ŞAHMƏMMƏDLİ**

## "Nağdsız ödəniş"lərin genişləndirilməsi istiqamətində maarifləndirici tədbirlər keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib və həyata keçirilməsi üçün müvafiq dövlət orqanlarına tapşırıqlar verilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin birgə təşkilatçılığı ilə nağdsız ödənişlərin üstünlükləri mövzusunda maarifləndirici tədbirlər keçirilib.

Muxtar respublikanın bütün rayonlarını əhatə etməklə, yeddi kənd mərkəzində keçirilən silsilə tədbirlərdə qeyd olunub ki, rəqəmsal ödəniş sistemi müasir dünyanın əsas iqtisadi çağırışlarından biri olmaqla, vergi sisteminin təkmilləşdirilməsində, maliyyə sabitliyinin və ümumilikdə, iqtisadi inkişafın təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada rəqəmsal ödənişlərin genişləndirilməsi üçün lazımi infrastruktur yaradılıb, zəruri avadanlıqlar quraşdırılıb. Nağdsız ödənişlərin üstünlüklərindən bəhs olunaraq bildirilib ki, kart sahibləri bu ödənişlərə üstünlük verməklə həm vaxtlarına qənaət etmiş olur, həm sağlamlıqlarının qeydinə qalır, həm də təhlükəsiz şəkildə öz vəsaitlərini xərcləməklə yanaşı, şəxsi büdcələrinə nəzarəti də həyata keçirirlər.

Diqqətə çatdırılıb ki, bir may 2021-ci il tarixə muxtar respublikada 1446 POS-terminal aparatı, 115 bankomat və 95 ödəniş terminalı quraşdırılıb, ödəniş kartlarının sayı 272579 ədəd təşkil edib. Cari ilin dörd ayında muxtar respublika üzrə POS- terminal aparatı, internet və digər ödəniş vasitələri ilə 37 milyon 345 min manat nağdsız əməliyyat həyata keçirilib, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 milyon 765 min manat artıq olub. Aparılan nağdsız ödənişləri 11 milyon 915 min manatı POS-terminallar, 25 milyon 430 min manatı isə internet və digər ödəniş vasitələ həyata keçirilib. Muxtar respublika internet ödəniş vasitələrinə əlçatanlığı daha da rahat təmin etmək məqsədilə "Naxçıvanbank" ASC-yə məxsus ödəniş kartları üçün "CİB", "Beynəlxalq Bank" ASC-yə məxsus ödəniş kartları üçün "İBO-mobile", "Kapital Bank" ASC-yə məxsus ödəniş kartları üçün isə "BirBank" mobil tətbiqləri sakinlərin istifadəsinə verilib.

Bildirilib ki, nağdsız ödənişlər artdıqca, ödəniş sistemləri daha effektiv şəkildə fəaliyyət göstərməyə başlayır və xərclərin azaldılması imkanları yaradılır. Digər tərəfdən ödəniş sistemlərinin inkişafı əhalinin kreditə çıxış imkanlarını artırır və bu zaman kartlar rahat ödəniş vasitəsi kimi çıxış edir. Beləliklə, nağdsız ödənişlər iqtisadi inkişafa müsbət təkan verir.

Keçirilən tədbirlərdə sakinləri maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb. görüşün mahiyyətinə uyğun olaraq hazırlanmış bukletlər iştirakçılara paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Dünən "Naxçıvan" Universitetində "Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyi: yerli istehsal və uğurlu nəticələr" mövzusunda konfrans keçirilib.*

## Ali təhsil ocağında konfrans



Konfransı giriş sözü ilə açan "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın əsas şərtidir. Məhz buna görə də, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin ərzaq təhlükəsizliyi məsələsini daim diqqət mərkəzində saxlayıb və bu məsələnin gələcək nəsillər üçün olduqca vacib və aktual olduğunu nəzərə alaraq ərzaq təhlükəsizliyi məsələsini dövlətçilik strategiyasının əsas elementləri sırasına daxil edib.

Rektor ulu öndərin ideyalarını uğurla davam etdirən Prezident cənab İlham Əliyevin ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatı məsələsini özünün iqtisadi strategiyasının əsas komponenti kimi daim diqqət mərkəzində saxladığını vurğulayıb, ölkəmizin sürətlə inkişaf etdiyini bildirib.

Konfransda "Ərzaq təhlükəsizliyinin təmin edilməsində yerli istehsal müəssisələrinin rolu" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Anar Cəfərov nazirlik tərəfindən sənaye və kənd təsərrüfatı sektorunun inkişafı sahəsində görülən işlər, həyata keçirilən layihələrdən danışıb.

Qeyd edilib ki, bu gün muxtar respublikamızda hər bir vətəndaşın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə etibarlı təminatı, bu sahədə makroiqtisadi sabitliyə əsaslanan daha yüksək və davamlı inkişafın əldə olunması və onun müasir tələblər səviyyəsində idarə edilməsi dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir. Son illərin təcrübəsi göstərir ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar kontekstində kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə bağlı atılan uğurlu addımlar bəhrəsini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncamlar, qəbul edilmiş Dövlət proqramları muxtar respublikanın sosial-iqtisadi inkişafına və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına rəvac verib.

Konfransda "Naxçıvan" Universitetinin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu "Pandemiya dövründə dünya birliyini gözləyən qlobal, regional və milli ərzaq təhlükəsizliyi problemləri", Naxçıvan Dövlət Universitetinin əməkdaşı Teymur Abbasov "İnnovasiyalı və dayanıqlı iqtisadiyyatda davamlı inkişaf Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas şərtdir" mövzularında çıxış ediblər.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Çempionat maraqlı gedişlərlə yadda qalır

*Xəbər verdiyimiz kimi, Naxçıvan şəhərində qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatı keçirilir. Altıncı turun görüşlərindən sonra şahmatçıların fikirlərini öyrəndik.*



*Ləman Hacıyeva – FIDE ustası*: – Naxçıvana üçüncü dəfədir, gəlirəm. İlk səfərimdə, 2015-ci ildə Naxçıvan şəhərində keçirilən beynəlxalq şahmat festivalında qızlar arasında birinci yeri tutmuşdum. Sonuncu dəfə buraya 2019-cu ildə şahmat yarışında iştirak etmək üçün gəlmişdim. Hazırkı yarış mənim üçün qənaətbəxş davam edir. İki məğlubiyyət, iki qalibiyyət və iki dəfə də heç-heçə ilə bitirmişəm oyunları. Bu gün rəqibimi üstələdim, qalib ayrıldım. Çempionatın təşkilatçılığı barədə onu deyə bilərəm ki, yüksək səviyyədədir. Naxçıvan şəhərindən heç getmək istəmirəm. Pandemiya şəraitində də şahmatdan uzaqlaşmamış, evdə daha çox şahmatla məşğul olmuş, öz üzərimdə işləyə bilmişdim. Bir sözlə, çempionata hazırlıqlı gəlmişəm. Hələ qarşıda bir neçə tur var və bundan sonrakı iştirakçılar üzərində üstünlük əldə etməliyəm. Rəqiblərimin hamısı güclüdür. Güclü şahmatçı ona deyirəm ki, daha çox çalışır, xüsusilə də xarakteri möhkəm olur. Niyə? Çünki rəqibə uduzandan sonra gərək psixoloji cəhətdən möhkəm olasan ki, sabahkı oyunu davam etdirə biləsən. Rəqiblərimlə daha əvvəl şahmat yarışlarında oynamışıq. Hamısı çox yaxşı gedişlər edir. Açığı, çətin və gərgin mübarizə gedir. Lakin sevindiricidir ki, Naxçıvan şəhərində təşkil edilən şahmat yarışlarında iştirak mənə çox böyük təcrübə qazandırır. Naxçıvan artıq mənim ən çox sevdiyim şəhərlərdən biridir. Bu çempionatda iştirakdan da çox məmnunam.



*Nəsrin Babayeva – Naxçıvan Şahmat Federasiyasının təmsilçisi*: – Artıq 10 ildir ki, şahmatla məşğul oluram. Atam bu sahədə inkişaf etməyimə çox kömək edir. Çempionatın gedişi barədə deyə bilərəm ki, hazırda rəqiblərim üzərində iki qalibiyyətim var. Belə yüksək səviyyədə təşkil edilən çempionatda iştirak mənim üçün qürurvericidir. Daha əvvəl Bakıda və Türkiyənin bir sıra şəhərlərində keçirilən şahmat yarışlarında iştirak etmişəm. Burada həm təşkilatçılıq, həm də iştirakçılara göstərilən qayğı yüksək səviyyədədir. Rahat şəraitdə oynamağımız sayəsində yarışlar hələ ki, mənim üçün müsbət davam edir. Şahmatda ruhdan düşməmək, motivasiya və psixoloji dözümlülük, iradə vacib amildir. Oyunlarda qalib gəlmək insanın özgüvənini artırır və digərlərinə nisbətən daha yaxşı motivasiya edir. Bu çempionatda iştirak etmək özümü bu sahə üzrə inkişaf etdirmək üçün böyük fürsətdir. İnanıram ki, bundan sonra da yaxşı nəticələr göstərəcək və Naxçıvanımızı layiqincə təmsil edəcəyəm.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Altıncı turun oyunları olub



***Naxçıvanda keçirilən şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatında 6-cı turun oyunları keçirilib.***

Naxçıvanlı şahmatçı Nəsrin Babayeva (1704) bu turda FIDE ustası Ləman Hacıyeva (1982) ilə qarşılaşıb və turu məğlubiyyətlə başa vurub.

Digər zəka sahibimiz Nazlı Hümbətova (1381) qrossmeyster Zeynəb Məmmədyarova (2274) ilə qarşılaşıb və "sülh"ə imza atıb. Eyni nəticə beynəlxalq usta Səbinə İbrahimova (2213) ilə beynəlxalq usta Gövhər Beydullayevanın (2263) oyununda da qeydə alınıb.

Beynəlxalq usta Gülnar Məmmədovaya (2382) rəqib olan qrossmeyster Ülviyyə Fətəliyeva (2301) məğlubiyyətə uğrayıb.

Qrossmeyster Xəyalə Abdulla (2263) bu turda FIDE ustası Ayan Allahverdiyevadan (2088) üstün olub. Səbinə Rzalı (1925) ilə Mələk İsmayıl (1997) arasında keçirilən görüş heç-heçə başa çatıb.

Turnir cədvəlinə hazırda 5,5 xalla Gülnar Məmmədova başçılıq edir.

Bu gün 7-ci turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Ləman Hacıyeva - Gövhər Beydullayeva*
*Ülviyyə Fətəliyeva - Nazlı Hümbətova*
*Zeynəb Məmmədyarova - Ayan Allahverdiyeva*
*Səbinə İbrahimova - Səbinə Rzalı*
*Xəyalə Abdulla - Nəsrin Babayeva*
*Mələk İsmayıl - Gülnar Məmmədova*

Görüşlər saat $14^{00}$-da başlayacaq.

**✍ Ceyhun MƏMMƏDOV**

## Komandir hazırlığı məşğələsi



Naxçıvan Qarnizonu Qoşunlarında hərbi hissə komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələsi keçirilib.

Komandir hazırlığında bölmələrdə "Günün nizam qaydaları"na uyğun tədbirlərin icra olunması üzrə keçirilən nümayiş məşğələdə "Qalx!" komandasınadək şəxsi heyətin yerinə yetirdiyi tapşırıqlar və icra etdiyi fəaliyyətlər nümayiş etdirilib. Şəxsi heyətin sağlamlığı və qidalanmasına nəzarət, şəxsi gigiyena və təmizlik tədbirlərinin yerinə yetirilməsi, sıra baxışı və yerbəyerin təşkili, fiziki və sıra hazırlığının, ictimai-siyasi və hüquqi maarifləndirmənin keçirilməsi, gözətçilik və sutkalıq naryadın hazırlanması, müstəqil hazırlıq və döyüş hesabatının çatdırılması, həmçinin "Günün nizam qaydaları"na uyğun digər tədbirlər nümayiş məşğələdə öz əksini tapıb.

Məşğələ zamanı "Vətən müharibəsinin nəticələrinin Hərbi Hava Qüvvələri baxımından təhlili" mövzusunda dərs keçilib.

Komandir hazırlığının sonunda zabitlərin hərbi topoqrafiyadan nəzəri bilikləri və fiziki hazırlığının səviyyələri yoxlanılıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən yekunda bildirilib ki, məqbullar götürülən zaman hərbi hissə komandirləri və müavinləri komandir hazırlığından yüksək nəticə göstəriblər.

**Kənan CƏLİLOV**

## Taktiki-xüsusi təlim keçirilib

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi tərəfindən "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində baş verə biləcək yanğınların qarşısının alınması və söndürülməsi işinin təşkili, xəsarət alanlara ilk tibbi yardımın göstərilməsi" mövzusunda taktiki-xüsusi təlim keçirilib.***



Nəzəri hissədə ilkin olaraq təlimə cəlb olunan şəxsi heyətə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovniki Ehtiram Məmmədov taktiki-xüsusi təlimin keçirilməsinin əsas məqsədi haqqında məlumat verib. Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Mirtaleh Seyidov "Gəmiqaya Mebel Fabriki" MMC-də keçiriləcək taktiki xüsusi təlimin mövzusu, planı, təlimin sxemi və təlim nöqtələri haqqında danışıb. Təlimin planına uyğun olaraq birinci mərhələdə "Gəmiqaya Mebel Fabriki" MMC- də şərti olaraq baş vermiş yanğınların söndürülməsi üzrə komandir-rəis heyətinin irimiqyaslı və mürəkkəb şəraitlərdə yanğınların söndürülməsi üzrə yerinə yetirəcəkləri müstəqil qərarları dinlənilib.

İkinci mərhələdə isə praktik olaraq qazanxanada, boya saxlanılan anbarda, ağac yonqarları saxlanılan bunkerlərdə və istehsalat sahələrində şərti baş vermiş yanğınların qarşısının alınması və söndürülməsinə, yanğın zonasından işçilərin və maddi vəsaitlərin təxliyə edilməsinə, xəsarət alanların xilas edilməsi və onlara ilk tibbi yardımın göstərilməsinə, yanğın zamanı işçilərin tüstüdən və digər zəhərli qazlardan qorunmasına, sexlərdə yarana biləcək kiçik yanğınların ilkin yanğınsöndürmə vasitələrilə söndürülməsi işinin təşkilinə həsr olunub.

Təlim müddətində fabrikin ağac yonqarlarının yığılması üçün nəzərdə tutulmuş bunkerlərində baş verən yanğınların söndürülməsi üçün quraşdırılmış yeni və müasir tələblərə cavab verən yanğınsöndürmə qurğusunun vəziyyəti yoxlanılıb.

Təlim zamanı fabrikin rəhbər heyətinin yarana biləcək hadisənin qiymətləndirilməsi və qərarların qəbul edilməsi bacarığı təkmilləşdirilib, Fövqəladə Hallar Nazirliyinin *"112"* qaynar telefon xətti və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin *"101"* xidməti ilə qarşılıqlı əlaqədə yanğınlara çevik reaksiya verilməsi sualları məşq etdirilib.

Təlimə Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsindən 1 avtonərdivan, 1 İVECO və 3 yanğınsöndürmə avtomobili, ümumilikdə, 40 nəfər şəxsi heyət, "Gəmiqaya Mebel Fabriki" MMC-nin 1 yanğınsöndürmə avtomobili, 6 nəfərdən ibarət könüllü yanğınsöndürmə komandası cəlb olunub. Təlim uğurla, təhlükəsizlik qaydalarına tam əməl edilməklə başa çatdırılıb və qarşıya qoyulmuş məqsədlərə nail olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə hansı məsuliyyətə səbəb ola bilər?*

***Cavab:*** Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə 29 noyabr 2016-cı il tarixli Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə adlanan 148-1-ci maddə əlavə edilmişdir. Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə əməlləri cinayət əməli hesab edilir.

İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə əməlini törətmiş şəxs və ya şəxslər cinayət qanunvericiliyi ilə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Həmçinin böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı bir şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma min manatdan min beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtanatma isə iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### İtmişdir

Şərur rayonunun Arpaçay kəndində yaşamış Qasımov İsa Kərəm oğlunun adına verilmiş JN-79 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 426